Sivilizasiya,
Bakı Avrasiya Universiteti
Cild 14, № 4, 2025 (65)

**UOT 81'1**

# ŞƏHRİYARIN ƏSƏRLƏRİNDƏ TARİXİ ŞƏXSİYYƏT ADLARI

**Sevinc ƏLƏSGƏROVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 21 fevral 2025; çapa qəbul edilmişdir: 26 may 2025; online-da çap edilmişdir: 23 sentyabr 2025.

Received: 21th of February, 2025; accepted: 26th of May, 2025; published online: 23th of September, 2025.

**Açar sözlər:** *Şəhriyarın əsərləri, onomastik leksika, tarixi şəxsiyyət adları, leksik-semantik xüsusiyyətlər, əsərin ideyası*

## Giriş

Dildə hər şeyin öz adı vardır. Ad olmasa, insanları, bütün canlı varlıqları, əşya və hadisələri, habelə müxtəlif coğrafi obyektləri seçmək, onları bir-birindən fərqləndirmək qeyri-mümkün olardı. Buna görə də maddi varlığı öyrənmək, onu dərk etmək üçün duyulan, düşünülən hər şeyin tarixən adlandırılması başlıca şərt olmuşdur. Dildə mövcud olan xüsusi adların cəmi onomastikanı təşkil edir. Deməli, onomastika hər hansı bir dildəki xüsusi adların məcmusudur.

Onomastika Azərbaycan dilində adları, onların mənşəyini, məzmununu, yaranma xüsusiyyətlərini və inkişaf tarixini öyrənilməsi ilə məşğul olan dilçilik bölməsidir. Onomastik leksikanın ən böyük yarımşöbəsi olan antroponimlər insan adlarını, onların mənşəyini, formalaşmasını və məna çalarlarını araşdıran dilçilik sahəsidir. Antroponimlər insan adlarının müxtəlif sahələrini əhatə edir. Şəxs adları dilin və mədəniyyətin ayrılmaz hissəsidir. Onlar xalqın tarixini, ənənələrini, inanclarını və həyat tərzini əks etdirir. Azərbaycan dilində şəxs adları zəngin mənəvi və mədəni irsin daşıyıcısıdır. Adlar, əsasən, dini, tarixi, təbiət hadisələri və digər mövzularla bağlı olur. Bu adlar həm oğlan, həm də qız adları üçün müxtəlif mənaları ifadə edir.

Tarixi şəxsiyyət adları təkcə insanları tanıdan deyil, həm də mədəniyyət, tarix, din və dil inkişafı haqqında məlumat verir. Məhəmmədhüseyn Şəhriyarın əsərlərində adları beş hissəyə bölə bilərik. Şairin yaradıcılığında, əsasən, ərəb və fars mənşəli adlardan istifadə edilib.

## 1. Tarixi şəxsiyyət adlarının leksik-semantik xüsusiyyətləri

Tarixi şəxsiyyətlər dünya tarixinin formalaşmasında mühüm rol oynamış insanlardır. "Azərbaycan dilinin antroponimik sistemində tarixi şəxsiyyətlərin adları yer almışdır. Bu adların çoxu tarixi mənbələrdən, tarixlə əlaqəli elmi əsərlərdən, araşdırmalardan məlum olsa da, bir qismi bədii ədəbiyyatda yaşayır. Sənətkarlar öz əsərlərində müəyyən hadisələri, vəziyyəti tarixi şəxsiyyətlərin, ictimai-siyasi dövlət xadimlərinin, hakimlərin, fatehlərin, şair və yazıçıların, elm xadimlərinin adı ilə əlaqələndirir" [8, s.1169]. Tarixi şəxsiyyətlərin adları yaşadıqları dövrün siyasi, elmi, mədəni xüsusiyyətlərini əks etdirir. Onlar mədəniyyət, elm, siyasət, hərb və ya din sahələrində öz töhfələri ilə tanınmış, bə-

* *magistrant, Bakı Avrasiya Universiteti*
*e-mail:* elesgerovasevinc21@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.4.037**

şəriyyətin inkişafına təsir göstərmişlər. Hər adın arxasında bir xalqın dəyərləri, etiqadı və tarixi dayanır. M.Şəhriyarın əsərlərində istifadə etdiyi tarixi şəxsiyyət adlarını leksik-semantik baxımdan aşağıdakı kimi qruplaşdırmaq olar.

➢ *Abbas Mirzə* – "Abbas adı ərəb mənşəli "əbbas" sözündən yaranmışdır. Qaynayıb-qarışmayan, adamayovuşmaz, hirsli, acıqlı, tutqun, qəzəbli anlamlarını ifadə edir" [8, s. 26]. Abbas Mirzə tarixdə Qacar sülaləsindən olan şahzadə və İranın vəliəhdi idi.

Bu haman bağdı ki, burda yaşayıb şahzadalar, Parça-parça olub indi, yenə xoş görkəmi var. Elə bir ayinədir, əks eləyir indi yenə, O Abbas Mirzəni ki, burda tutardı o qərar [9, s.356]. Abbas Mirzə ağıllı idarəçi, islahatçı və hərbi lider kimi tanınırdı. "Mirzə" tarixi titul kimi istifadə edilmişdir.

➢ *Bilqeys* – Süleyman peyğəmbərin sevgilisi olub, onun sehrli üzüyünü alıb və suya atıb. "Sərvət sahibi" deməkdir, yəhudi mənşəlidir [1, s.39].

Bir də Bilqeys Süleymanə yetirməz peyğam, Xoş xəbər hüdhüdümüz, şəhri-Səbamız da ölür [9, s.353]. Burada Bilqeys adı müdriklik, liderlik, güclü iradə və gözəlliyi təmsil edir.

➢ *Bəxtiyar* –fars mənşəli "bəxteyar" sözündən yaranmışdır. Xoşbəxt, ağgün mənasındadır [8, s.143]. Bu adın tərkib hissələri – "bəxt" və "yar" sözləri dilimizdə ayrı-ayrılıqda da işlənir. "Bəxtiyar" adı sahibinə bir çox müsbət mənəvi keyfiyyətləri gətirən ad olaraq simvollaşmışdır.

*Qardaşların gözündən öp,*
*Bəxtiyarın üzündən öp,*
*Səmədin də sözündən öp,*
*Mən də təkəm, sizə qurban,*
*Tək canım hammuza qurban!* [9, s.56].

Bu adın mənəvi yükü, tarixiliyi və müsbət enerjisi hər zaman yüksək qiymətləndirilir. Ədəbiyyatımızda bu ad Bəxtiyar Vahabzadənin adı ilə əbədiləşmişdir. O, Azərbaycan ədəbiyyatının ən görkəmli şairlərindən biri olub.

➢ *Çingiz* – türk-monqol mənşəli sözdür. Bu sözün mənşəyi və mənası ilə bağlı müxtəlif fikirlər vardır. "Tengiz" adına hələ "Oğuznamə"lərdə təsadüf edilir. Çingiz adı titullardan yaranmış adlar siyahısındadır [8, s.189].

Nə qandın kim gül əkəndir? Kim qılınc tək qan tökəndir? Teymur hələ kürəkəndir, Çingiz canın alan dünya [9, s.104]. Monqol-tatar imperiyasının banisi, məşhur sərkərdə (1162-1227) olmuşdur. Onun yaratdığı imperiya Avrasiya materikinin böyük bir hissəsini tuturdu. Çingiz adı, əsasən, okean, dəniz mənasına gəlir. Bu ad hər zaman tarixlə əlaqələnən adlar siyahısındadır. Çingiz adı qəhrəmanlığı, cəsur ruhu simvolizə edir.

➢ *İsgəndər* – Bu ad qədim və çoxşaxəli bir tarixi-mədəni mənaya malikdir. Bu ad geniş əraziləri əhatə edir. Yunan mənşəli "alexoaner" sözündən olub, dilimizə tərcümədə "mərd kişi, kişi müdafiəçisi, cəsur kişi, mərd mühafizəçi" mənasındadır. "Alekso" "müdafiə", "aner" isə "kişi, kişilik, ər" mənasındadır [8, s. 384]. Bu ad liderlik keyfiyyətlərini, gücü simvolizə edir.

*Bu yamanlıq nədir belə, niyə qoyub gedir məni,*
*Göylərə ucalır ahım, fələyə qarğışım gedir.*
*Mənim ömür sarayımdan sən çıxdığın gündən bəri,*
*Sanki İskəndərim gedir, sanki Dariyuşum gedir* [9, s.179].

Bu ad, əsasən, dünya tarixində iz qoymuş Makedoniyalı İsgəndər ilə əlaqələndirilir. O, dünya tarixində böyük hərbi sərkərdə və imperiya qurucusu kimi tanınır. "Qədim

Yunanıstanın Makedoniya çarlığının hökmdarı və Argeadlar sülaləsinin nümayəndəsi, qədim dünyanın məşhur fatehi, sərkərdəsi və hökmdarı İsgəndər eramızdan əvvəl 21 iyul 356-cı ildə anadan olub. İsgəndər adı ona ulu əcdadı olan Makedoniya padşahı I Aleksandrın şərəfinə verilib. Argeadlar sülaləsinin bütün nümayəndələri kimi İsgəndərin atası, Makedoniya padşahı II Filipp də özünü Heraklın nəslindən hesab edirdi. Anası Olimpiada isə Epir padşahının qızı idi" [4]. Ad güc, liderlik və əbədilik simvoluna çevrilib. İsgəndər adı müxtəlif xalqların ədəbiyyatında, mədəniyyətində və mifologiyasında xüsusi yer tutur.

➢ *Qaçaq Nəbi* – Qaçaq Nəbi tarixi şəxsiyyət olduğu üçün adı həm tarixi, həm də simvolik məna daşıyır. Ərəb mənşəli "nəbi" sözü dilimizdə "peyğəmbər, rəsul" mənasındadır. Hərfi tərcümədə "(ənbə) xəbər gətirən, xəbər verən"dir [8, s. 505]. Bu ad daşıyan şəxsə mənəvi güc və liderlik xarakteri verir. "Qaçaq" sözü Azərbaycan dilində tarixi olaraq "qanundan qaçan", "dövlətə üsyan edən" və ya "çətində olanları müdafiə edən" mənasında işlədilmişdir.

*Dur qəfəs qapısını bir açaq, Nəbi,*
*Bu sınıq qanadla bir uçaq, Nəbi,*
*Ay qoçaq Nəbi!* [4, s. 58]

Qaçaq Nəbi XIX əsrin ikinci yarısında Azərbaycanın Cənub bölgəsində tanınmış xalq qəhrəmanı olmuşdur. "Azərbaycan xalqının ən çox sevdiyi, vəsf etdiyi Qaçaq Nəbinin həyatı və mübarizəsini əks etdirən ən etibarlı, bitkin, dolğun mənbə, heç şübhəsiz, Bəhlul Bəhcətin bu əsəridir. Ona görə ki, müəllif Qaçaq Nəbinin müasiri, həmyerlisi, onu və dəstəsindəkilərin əksəriyyətini yaxından tanıyan, görüşüb söhbətləşən, mübarizəsinin məramını yaxşı bilən müdrik insandır. 5 başlıqda verilmiş fakt, detalın hər biri Qaçaq Nəbi hərəkatının mahiyyətini, fərdi şücaətinin, igidliyinin konkret bir səhifəsidir" [3]. Qaçaq Nəbi çar Rusiyasının və yerli feodalların zülmünə qarşı çıxaraq kasıbların müdafiəçisi kimi tanınıb. Bu adın daşıdığı simvolizm onu sadəcə bir insan adı olmaqdan çıxarıb, idealların, xalq gücünün və ədalət mübarizəsinin ifadəsinə çevirmişdir.

➢ *Sokrat* – Əsli "sozo" (qurtarmaq, azad etmək) və "kratos" (hakimiyyət, güc, qüvvət) sözlərindəndir və "öz hakimiyyətini saxlayan" mənasındadır [11]. Yunan filosofunun adı ilə məşhurlaşmışdır.

*...Məsiha simasıdır xaç zindanında.*
*Bir Rüstəm qəmi!*
*Söhrabın taleyi!*
*Həkim Sokrat şükürü!*
*Qərq olmuş nicat gəmisi!* [9, s.370]

Qədim yunan filosofu Sokrat bu adı məşhurlaşdırmışdır. Sokrat öz düşüncələri, fəlsəfi araşdırmaları ilə tarixə düşmüşdür. Sokratın adı həm də müdriklik, fəlsəfi düşüncə və maarifçilik anlayışları ilə əlaqələndirilir.

➢ *Teymur* – türk mənşəli "dəmir" sözündəndir. Çox qədim kişi adlarından olan Teymur "möhkəm, sağlam, yenilməz" mənasındadır. Azərbaycan antroponimikasında tərkibində Teymur adının işləndiyi mürəkkəb kişi adları da mövcuddur. Teymur adının dəyişilmiş formaları olan Tamir, Timur rus dilinə keçmiş türk antroponimləri sırasındadır [8, s.644]. Bu ad geniş əraziləri əhatə edir. Günümüzdə də bu ad öz aktuallığını qorumaqdadır.

*Nə qandın, kim gül əkəndir?*
*Kim qılınc tək qan tökəndir?*
*Teymur hələ kürəkəndir,*
*Çingiz canın alan dünya [9, s.104].*

Bu ad tarixdə Əmir Teymurun adı ilə əbədiləşmişdir. Əmir Teymur türk dünyasının fatehlərindən biridir. "Türk dünyası və Müsəlman Şərqi dünyaya çox fatehlər verib. Onlardan biri də Əmir Teymurdur. Hər il aprelin 9-u Özbəkistanda Şərq və müsəlman dünyasının böyük filosofu, yenilməz sərkərdəsi və 7 dünya hökmdarı Əmir Teymurun doğulduğu gün – müqəddəs bayram kimi qeyd olunur. İstər sağlığında, istərsə də ölümündən 604 il keçməsinə baxmayaraq, bu tarixi və sirli simanın yaşadığı dövrə və şəxsiyyətinə maraq azalmır" [1]. Teymur adı qəhrəmanlıq, güc simvolu kimi məşhurlaşmışdır.

## 2. Azərbaycan ədəbiyyatında və mədəniyyətində poetik önəmi olan xüsusi adlar

➢ *Xaqani* – türk mənşəli "xaqan" sözündəndir. "Böyük hökmdara, xanlar xanına, imperatora mənsub olan" mənasındadır [8, s. 338]. "Xaqani" adı Azərbaycan mədəniyyətində və ədəbiyyatında tarixi və poetik önəmi olan xüsusi bir addır.

*Hər xaqan yadigarı bir müdhiş xərabədir.*
*Mədain xütbəsini car çəkmirmi Xaqani?!* [9, s.188].

"Xaqani" adını tanınmış edən XII əsr Azərbaycan şairi Xaqani Şirvanidir. Əsl adı İbrahimdir. Xaqani onun təxəllüsü, Şirvani isə mənsub olduğu yerin adıdır [5]. Fars və ərəb dilində yazıb-yaratmışdır.

➢ *Sabir* – Mirzə Ələkbər Sabir (1862-1911). "Sabir" adı hər zaman ədəbiyyatımızla əlaqələnən bir addır. Bu ad "səbr etmək, səbirli olmaq" mənalarını ifadə edir. Bu şəxs adı günümüzdə də istifadə edilən adlar siyahısındadır.

*...Sabirin şəhərinə doğru qatarı çəkmədə sərvan,*
*O xəyalımdakı Şirvan!* [9, s.32].

➢ *İsmayıl* – qədim adlardan biridir. Ad müxtəlif aspektlərdə təhlil edilə bilər. "İsmayıl" adı ibrani mənşəli "yismael" sözündən olub, dilimizdə "Allah eşidər, Tanrı xəbər tutar" mənasındadır [8, s.387]. Bu adın ərəbcələşdirilmiş forması haqqında da müxtəlif məlumatlar var. Azərbaycanda bu adla əlaqəli İsmayıllı toponimi vardır. Şah İsmayıl Azərbaycan tarixi və mədəniyyətində dərin iz buraxmış şəxsiyyətlərdən biridir. O, yalnız Azərbaycan Səfəvilər dövlətinin banisi deyil, həm də görkəmli şair, sərkərdə və dövlət xadimidir.

➢ *Nizami* – ərəb mənşəli "nəzm" sözündəndir. "Nizami" kişi adı "qayda-qanunlu, nizama riayət edən, nizamlı" mənasındadır. "Nizaməddin" kişi adının qısaldılmış formasından yaranmış antroponimdir. Azərbaycan antroponimikasında təxəllüsdən yaranan adlar sırasındadır. Bütün dünyada sevilən "Xəmsə"nin müəllifi Nizami Gəncəvinin (1141-1209) təxəllüsündən yaranmış kişi adıdır. Ərəb dilində "Nizami" sözü ordu ilə əlaqələndirilir. Azərbaycan dilində isə bu ad Nizami Gəncəvinin təxəllüsü ilə əlaqəlidir.

*...Sədinin bağı-Gülüstanı gərək həşrə qədər,*
*Alması sellənib, xurması zənbillənsin.*
*Lənət ol badi-xəzanə ki, Nizami bağının.*
*Bir yava gülbəsərin qoymadı kakillənsin* [9, s. 57].

➢ *Səməd* – həm leksik, həm də semantik baxımdan dərin mənalar daşıyan qədim adlardan biridir. Bu adın xüsusiyyətlərinə, dil quruluşuna və mənasına tarixi kontekstdən nəzər yetirilir. Bu ad ərəb mənşəlidir. “Ərəb mənşəli “saməd” sözü dilimizdə “azdanışan, daimi, sakit, həmçinin müstəqil, möhtac olmayan (adam)” anlamlarını ifadə edir. Allahın məlum 99 adından biri “əs-Saməd”dir. Bu gün “Saməd” adı dilimizin ahəng qanununa görə dəyişmişdir, əsasən, “Səməd” şəklindədir” [8, s. 564]. Səməd adı sadədir və semantik baxımdan dini və mənəvi mənalar daşıyır. Bu ad günümüzdə də öz aktuallığını qoruyub saxlayan adlar siyahısındadır. Bu ad ədəbiyyatımızda Səməd Vurğunun adı ilə əbədiləşmişdir.

➢ *Süleyman Rüstəm* – Süleyman adının qədim yəhudi dilində ilkin forması “Şelemox” olsa da, sonradan “Solomon” şəklinə düşmüşdür. Əsatirlərə görə, Süleyman qədim yəhudi padşahı və peyğəmbərdir. Ərəblərdə “Süleymən” formasındadır. Azərbaycan antroponimikasında İslam dini ilə əlaqədar şəxs adları sırasında Süleyman “sülh, əmin-amanlıq, sakitlik” mənasındadır [8, s.603]. Bu ad günümüzdə də öz aktuallığını qorumaqdadır. Dilimizə ərəb dilindən keçmişdir. Eyni zamanda, bu ad ədəbiyyatımızla da əlaqəlidir.

*Heydərbaba üz Bakıya çöndərir,*
*Hey gül görür, dərib sizə göndərir.*
*Sözlərini hey əndərir, döndərir,*
*Sənlə Süleyman Rüstəm yad edir,*
*Bu şivəylə Şəhriyar şad edir [9, s. 46]*

Süleyman Rüstəm Azərbaycan ədəbiyyatının görkəmli şairi, dramaturqu və ictimai xadimi olmuşdur. Əsərlərində vətənpərvərlik, əmək, insan azadlığı kimi mövzulara geniş yer verilmişdir. O, Azərbaycan poeziyasında xüsusi yer tutur.

**Nəticə**

Sonda bu nəticəyə gəlirik ki, M.Şəhriyarın əsərlərində daha çox güc və fəlsəfi düşüncələr ifadə edən tarixi şəxsiyyət adlarından istifadə edilmişdir. Şairin əsərlərində ərəb mənşəli adlar çoxluq təşkil edir. Eyni zamanda, türk və fars mənşəli adlara da geniş yer verilmişdir. M.Şəhriyar tarixi obrazların adlarını əsərin başlıca ideyası ilə əlaqələndirməyi ustalıqla bacarmışdır. Başqa sözlə, şair tarixi simaları yalnız bir fakt kimi yox, öz ideallarını ifadə etmək üçün bir vasitə kimi istifadə etmişdir.

## ƏDƏBİYYAT


1. Əhmədov B. Etimologiya lüğəti. Bakı: Altun kitab, 2015, 288 s.
2. Eyvazlı A. Fateh Teymur // 525-ci qəzet, 2009, 9 aprel, s. 4.
3. Nərimanoğlu H. Qaçaq Nəbi tarixi”nin “arxiv ömrü” sona çatdı. Fədakar Tədqiqatçı Bəhlul Bəhcətin amalı 80 ildən sonra gerçəkləşdi // 525-ci qəzet, 2011, 22 iyun, s. 6.
4. Qaraoğlu F. Tarixdə iz buraxanlar: Makedoniyalı İsgəndər // Bakı xəbər, 2017, 26 aprel, s. 15
5. Qaraoğlu F. Tarixdə iz buraxanlar: Nizami Gəncəvi // Bakı xəbər, 2016, 5-7 mart, s.15.
6. Qaraoğlu F. Tarixdə iz buraxanlar: Xaqani Şirvani // Bakı xəbər, 2017, 11 oktyabr, s.15.
7. Qurbanov A. Azərbaycan onomologiyasının əsasları. 2 cilddə, II c., Bakı: Azərbaycan Milli Elmlər Akademiyası, 2019, 432 s. (https://www.afadqurbanov.az/books/5.%20Az. Onomalogiyasinin%20 Esaslari%20II.pdf).
8. Qurbanova F. Azərbaycan şəxs adları. İzahlı lüğət. Bakı: 2019, 1328 s. (https://www. Afadqurbanov.az/books/AZERBAYCAN%20SEXS%20ADLARI_izahli%20luget.pdf ).

9. Şəhriyar M. Seçilmiş əsərləri. Bakı: Avrasiya Press, 2005, 480 s.
10. Yusifli C. Formanın müqəddəs sirri: Mirzə Ələkbər Sabir // Ədəbiyyat qəzeti, 2019, 12 yanvar, s. 26-27.
11. https://nedir.az/adinin-menasi-nedir/sokrat/

***Резюме***

***Севиндж Аляскерова***

***Имена исторических личностей в произведениях Шахрияра***

Имена собственные являются языковыми единицами, отражающими самобытность каждого народа. Они постоянно развиваются. Основную часть имён собственных составляют личные и географические названия. Ономастическая лексика систематизируется и исследуется. Личные имена также классифицируются по своим особенностям.

Личные имена, в свою очередь, в зависимости от своих функциональных и семантических характеристик, делятся на различные группы. Одной из таких групп являются имена исторических личностей. Имена исторических личностей охватывают не только определённый период, но зачастую отражают духовные и общественные ценности, присущие нескольким эпохам. При их исследовании нельзя ограничиваться только литературными источниками – необходимо обращаться также к историческим данным, летописям, хроникам и другим документальным источникам.

Ономастическую лексику, используемую в произведениях Мухаммед-Хусейна Шахрияра, можно классифицировать по-разному. Одной из таких классификаций являются имена исторических личностей. Эти имена охватывают как древние времена, так и наше настоящее. При изучении таких имён исследователи также обращаются к историческим книгам и источникам. В данной статье будет рассмотрено употребление имён исторических личностей в произведениях М. Шахрияра. В поэзии поэта имена различных исторических фигур несут особую стилистическую и семантическую нагрузку. В его творчестве исторические личности представлены не только как персонажи прошлого, но и как образы, отражающие ценности, актуальные сквозь века.

Творчество М.Шахрияра, опираясь на богатые традиции азербайджанской и персидской литературы, в художественном контексте воссоздаёт исторические личности. Увековечение имён исторических фигур в нашем языке напрямую связано с историей. Эти имена всегда были объектом исследования нашей лингвистики и литературы. Языковой и стилистический выбор поэта направлен на то, чтобы донести образы исторических личностей до читателя более выразительно и содержательно.

Кроме того, творчество М.Шахрияра опирается как на азербайджанскую, так и на персидскую литературные традиции. Он оригинально отражает культ исторических личностей, существующий в этих литературах, формируя универсальные образы.

**Ключевые слова:** *произведения М.Шахрияра, ономастическая лексика, имена исторических личностей, лексико-семантические особенности, идея произведения*

***Summary***

***Sevinc Alaskarova***

***Historical Figure Names in Shahryar's Works***

Proper names are linguistic units that reflect the uniqueness of each nation. They are constantly evolving over time. The main components of proper names are personal and place names. Onomastic vocabulary is studied through systematic classification. Personal names, in turn, are categorized according to their distinctive features.

Personal names can be divided into different groups based on their functional and semantic characteristics. One of these groups is historical figures' names. These names encompass not only a specific period but sometimes several eras, carrying spiritual and social values within them. When studying such names, it is not sufficient to rely solely on literary sources; it is also essential to refer to historical science, factual materials, chronicles, and other historical documents.

The onomastic vocabulary found in the works of Mohammad-Hossein Shahriar can be classified in various ways. One such classification includes the names of historical figures. These names can reflect both ancient times and our modern era. When analyzing these names, it is also necessary to refer to history

books and sources. This article will explore the names of historical figures in the works of M. Shahriar. In his poetry, the names of various historical figures carry specific stylistic and semantic weight. These historical individuals are portrayed not only as people of the past but also as representations of timeless values.

M.Shahriar's creative work, grounded in the rich traditions of Azerbaijani and Persian literature, brings historical figures to life within an artistic context. The immortalization of historical names in our language is directly related to historical heritage. These names have always been a subject of research in our language and literature.

Furthermore, M.Shahriar's works are rooted in the rich traditions of both Azerbaijani and Persian literary heritage. He reflects the cult of historical figures present in these literatures in an original way, creating images that carry universal meaning.

**Key words:** *M.Shahriyar's works, onomastic vocabulary, names of historical figures, lexical-semantic features, idea of the work*

Redaksiya heyətinin üzvü fil.e.d., prof. Cəlilov Firudin Ağası oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.